**UOT 378.33 001.895**

***Emil Ehtibar oğlu QAFAROV***
***Azərbaycan Texniki Universiteti***
***“İqtisadiyyat və statistika” kafedrasının dissertantı***
***Email: qafarov-emil88@mail.ru***

# ELEKTRON AVADANLIQLAR İSTEHSALI MÜƏSSİSƏLƏRİNİN İNVESTİSİYA FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN KONSEPTUAL MƏSƏLƏLƏRİ

***Xülasə***

Müasir istehsal fəaliyyəti çoxsaylı və qarşılıqlı əlaqəli mürəkkəb sistem əmələ gətirir. Elektron istehsal müəssisələrinin investisiya təminatının yaxşılaşdırılması, onların fəaliyyətinin səmərəliliyində mühüm rola malikdir.

**Tədqiqatın məqsədi** – Elektron avadanlıqlar istehsalı fəaliyyətinin mahiyyətinin açıqlanması, istehsal fəaliyyəti subyektləri arasında münasibətlərdəki ziddiyyətlərin səbəblərinin aşkar edilməsidir.

**Tədqiqatın metodologiyası** – tədqiqat prosesində müşahidə, müqayisəli təhlil və məntiqi ümumiləşdirmə üsullarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – əldə edilən nəticələr elektron avadanlıqlar istehsalı müəssisələrinin səmərəli fəaliyyətinin təmin edilməsi, subyektlərin qarşılıqlı münasibətlərinin yaxşılaşdırılması tədbirlərinin hazırlanması və icrası zamanı istifadə oluna bilər.

**Tədqiqatın nəticələri** – elektron avadanlıqlar istehsalı sisteminin mahiyyətinə aydınlıq gətirilmiş, elektron avadanlıqların istehsal fəaliyyəti subyektləri arasında münasibətləri şərtləndirən əsas amillər xarakteriz edilmiş, həmin münasibətlərdəki ziddiyyətlərin səbəbləri göstərilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – elektron avadanlıqların istehsal prosesinin iqtisadi mahiyyəti səciyyələndirilmiş, elektron avadanlıqların istehsalı müəssisələrinin münasibətlərindəki ziddiyyətlərin aradan qaldırılması yolları göstərilmişdir.

***Açar sözlər: istehsal müəssisələri, münasibətlər, investisiya, innovasiya, yerli investor, risk, gəlir.***

## *Giriş*

Məqalədə elektron avadanlıqlar istehsalı müəssisələrinin investisiya fəaliyyətinin onun inkişafında və səmərəliliyində yeri və rolu tədqiq olunmuşdur. İnvestisiya fəaliyyətinin hüquqi bazası araşdırılmış, onun funksiya və prinsiplərinə fərqli münasibətlər müqayisəli təhlil olunmuşdur. İnvestisiya bazarı xarakterizə olunmuş, sənaye müəssisəsinin investisiya təminatı baxımından onun imkanları şərh olunmuşdur. Elektron avadanlıqları istehsalı müəssisələrinin investisiya təminatının təşkili baxımından investorun vəzifələri dəqiqləşdirilmişdir. İnvestisiyaların idarə olunması sistemində müəssisələrin investisiya fəaliyyətinin yeri və rolu müəyyən edilmişdir. Sənayenin bu sahəsində istehsal subyektlərinin investisiya fəallığı və investisiya fəaliyyətinin səmərəliliyi arasında əlaqənin konseptual aspektləri tədqiq olunmuşdur.

**İnvestisiya fəaliyyəti: mahiyyət və prinsiplər**

İnvestisiya fəaliyyəti, müvafiq mənbələrdə kapitalı artırmaq, istehsalı genişləndirmək və modernləşdirmək məqsədi ilə investisiya qoyuluşu (əsasən, uzun müddətə) ilə əlaqədar hərəkətlər sistemi kimi verilir. Digər yanaşmada investisiya fəaliyyəti perspektivdə mənfəət əldə etmək məqsədi ilə öz pul resurslarından imtina edən investorlar tərəfindən investisiya qoyuluşları ilə əlaqədar həyata keçirilən tədbirlərin məcmusu kimi təqdim olunur.

Azərbaycan Respublikasının qanunvericiliyində investisiya fəaliyyəti investorların ölkə ərazisində investisiya qoyuluşu ilə bağlı hərəkətlərinin məcmusu kimi təsbit olunur. “İnvestisiya fəaliyyəti sahəsində dövlət tənzimlənməsinin əsas prinsiplərinə: mülkiyyətin toxunulmazlığı; qanunçuluq; insan və vətəndaş hüquq və azadlıqlarının qorunması və təmin edilməsi; konfidensial məlu-

matların qorunması" aid edilir. [1]

Azərbaycan Respublikasında "investisiya fəaliyyəti sahəsində dövlət siyasətinin əsas məqsədi yerli və xarici investisiyalar hesabına dayanıqlı iqtisadi inkişafın təmin edilməsindən, rəqabətqabiliyyətli istehsal və xidmət sahələrinin inkişaf etdirilməsindən, iqtisadiyyatda yeni texnologiyaların, innovasiyaların tətbiq olunmasından ibarətdir". [2] Burada investisiya fəaliyyəti sahəsində dövlət siyasətinin əsas istiqamətləri qismində, həmçinin investorlara göstərilən xidmətlərin rəqəmsallaşdırılması və həmin xidmətlərin "bir pəncərə" prinsipi üzrə göstərilməsi vurğulanır.

Ölkə qanunvericiliyində dövlətin "investisiya fəaliyyətinin təşviqi məqsədi ilə - vergi və digər dövlət ödənişləri üzrə güzəştlərin müəyyən edilməsi; güzəştli şərtlərlə kreditlərin verilməsi; xüsusi iqtisadi zonaların, sənaye parklarının və digər rejimli zonaların yaradılması; dövlət-özəl tərəfdaşlığı mexanizminin genişləndirilməsi; yerli və xarici investorlara Azərbaycan Respublikasının investisiya potensialı, habelə investisiya fəaliyyətini tənzimləyən Azərbaycan Respublikasının normativ-hüquqi aktları, investisiya layihələri və potensial tərəfdaşlar barədə onlayn platformalar vasitəsilə məsləhət və məlumatların verilməsi, bu sahədə müvafiq tədbirlərin təşkili; investisiya fəaliyyətinin təşviqi məqsədini daşıyan digər tədbirlərin" [3] həyata keçirilməsi nəzərdə tutulur.

İnvestisiya fəaliyyətinin reallaşdırılması məqsədi ilə investisiya qoyuluşunu şərtləndirən tədbirlərin məcmusu kimi investisiya layihəsi, elektron avadanlıqları istehsalı müəssisəsində linvestisiya qərarının ifadə formasıdır. Bu layihə bir qayda olaraq qarşıya qoyulmuş məqsədə nail olmaq üçün müvafiq hərəkətlər məcmusunu reallaşdırır. İnvestisiya layihələrinin həyata keçirilməsi o zaman mümkün olur ki, investisiya fəaliyyəti ilə məşğul olan bütün subyektlərin iqtisadi maraqları üst-üstə düşür - onların hər biri bu konkret obyektə investisiyaların sürətlə həyata keçirilməsində maraqlı olmalıdır [7].

Azərbaycan Respublikasının qanunvericiliyində ölkədə investisiya fəaliyyəti sahəsində prioritetlər qismində "iqtisadiyyatın texnoloji tutumunu artıran, innovasiyaların tətbiqinə və inkişafına yönələn investisiya layihələri" [4] göstərilir. İnvestisiya fəaliyyətinin innovasiyalı inkişaf layihələri çərçivəsində göstərilməsi müasir dövr üçün səciyyəvi hal almışdır. İnnovasiyalı inkişaf layihəsi bu halda elmi-texniki proqramların həyata keçirilməsini, əsaslı (fundamental) tədqiqat işləmələrinin maliyyələşdirilməsini, məhsul və proses innovasiyalarının mənimsənilməsini əhatə edir. Eyni zamanda, innovasiyalı inkişafın zəruri atributları olan yeni texnologiyaların, nou-hauların, lisenziyaların və s. əldə edilməsi elektron avadanlıqları istehsalı subyektinin investisiya fəaliyyəti gedişində baş verir.

"Sənaye müəssisələrinin investisiya fəaliyyətinin əsas funksiyaları müəyyən sənaye sərhədləri daxilində aşağıdakı vəzifələri həll etməkdir:

- sənaye müəssisəsinin istehsal, təşkilati-təsərrüfat sistemlərinin genişmiqyaslı yenilənməsi və modernləşdirilməsi;
- istehsal və satış həcmlərinin genişləndirilməsi, bazar payının artırılması;
- yeni fəaliyyət sahələrinin inkişafı; yeni sənaye sahələrinə çıxış;
- müəssisədən asılı olan iqtisadi agentlərin müştərilər, təchizatçılar, kreditorlarla fəaliyyətin səmərəliliyinin artırılması;
- mümkün risklərin və təhdidlərin diversifikasiyası; müəssisənin sabit maliyyə nəticəsinin təmin edilməsi;
- sənayenin investisiya cəlbediciliyinin artırılması; müəssisənin, sənayenin innovativ inkişafının təmin edilməsi və s." [16, s. 34-36]

İnvestisiya prosesi investisiya aktivlərinin növlərini, həcmini və investisiya müddətini müəyyən edən investor hərəkətlərinin məcmusudur [21].

Mövcud qanunvericiliyə uyğun olaraq investor ölkə ərazisində investisiya fəaliyyətini həyata keçirən yerli və xarici investordur. Onu da qeyd etmək lazımdır ki, yalnız öz iqtisadi məqsədləri və iqtisadi maraqları naminə bu və ya digər fəaliyyət sahəsinə vəsait yönəldən subyekt investor hesab olunur. İnvestor müasir dövrün reallığına çevrilmiş şəbəkə imkanlarından yararlanmaqla investisiya qoyuluşlarının məqsəd və obyektlərini müəyyənləşdirir, vəsait tapır və gəlir əldə etmək

üçün onu investisiya obyektinin inkişafına yönəldir.

Yerli investor investisiya fəaliyyətini həyata keçirən Azərbaycan Respublikasının vətəndaşı və Azərbaycan Respublikasının hüquqi şəxsi, xarici investor isə investisiya fəaliyyəti göstərən əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər və onların filial və nümayəndəlikləri, beynəlxalq təşkilatlar, habelə xarici dövlətlərdir. [18]

İnvestisiya fəaliyyətinin əsas prinsiplərinə münasibətlər xeyli dərəcədə fərqlidir [24]. Həmin prinsiplərə aşağıdakıların aid edilməsinə rast gəlinir: müstəqillik, azadlıq, könüllülük, bütün iştirakçıların bərabər hüquqlu olması, investisiya sövdələşməsi iştirakçıları arasında münasibətlərin tənzimlənməsində müqavilənin əsas sənəd olması. Müstəqillik konkret halda müəssisənin mövcud qanunvericiliyə əməl etməklə investisiya fəaliyyətinə başladıqdan sonra, bu fəaliyyətə fiziki və hüquqi şəxslərin, habelə dövlətin müdaxilə etməməsini ifadə edir. Azadlıq prinsipi investorun investisiya qoyuluşunun növü, forması, həcmi, müddəti və s. xarakteristikalarının seçimində azad olduğunu nəzərdə tutur. Əlbəttə, digər təsnifatlar və şərhlər də vardır [20].

İnvestisiya sövdələşməsi iştirakçılarının münasibətlərinin tənzimlənməsində əsas sənəd kimi müqavilənin aşağıdakı istifadə istiqamətlərini nümunə göstərmək olar:

- investor investisiya qoyuluşunun həyata keçirilməsi üçün müqavilə əsasında, (habelə müsabiqə və ya hərrac qaydasında) digər fiziki və hüquqi şəxsləri investisiya fəaliyyətinə cəlb edir;
- investorun qərarı əsasında investisiyaya sahiblik, istifadə və sərəncam hüquqları digər hüquqi və fiziki şəxslərə müqavilə əsasında verilə bilər və s.

İnvestisiya fəaliyyətinin təməl prinsiplərinə münasibətdə mütəxəssislərin fəal müdaxiləsinin nəticəsi olaraq fərqli yanaşmalar daha çoxdur [5].

Bununla belə, həmin prinsiplər qismində:

- sistemlilik prinsipi;
- risklərin balanslaşdırılması (müəssisənin çox yüksək riskə malik investisiyaları borc hesabına deyil, öz vəsaiti hesabına maliyyələşdirməsi və s.) prinsipi;
- yalnız xərclərin gəlirlərdən az olması halının səmərəli olduğunu nəzərdə tutan – investisiya fəaliyyətinin səmərəliliyinin hədd prinsipi;
- gəlirlərin xərclərdən zamanca xeyli sonra gəlməsini nəzərə alan adaptasiya xərcləri prinsipi;
- multiplikativ effekt prinsipi və s. demək olar ki, qəbul edilir və fəaliyyət üçün əsas götürülür.

**İnvestisiya bazarı və müəssisənin investisiya fəaliyyəti**

İnvestorlar, əsasən fəaliyyət məqsədləri və xarakterinə görə fərdi və institusional investorlar kimi fərqləndirilirlər. Biznesini inkişaf etdirmək, habelə müəyyən sosial problemləri həll etmək məqsədi ilə investisiya qoyan fiziki və ya hüquqi şəxs kimi fərdi investor investisiya fəaliyyətinin birbaşa iştirakçısı olmaya bilər. Əsas fəaliyyət məkanı qiymətli kağızlar bazarı olan və maliyyə vasitəçiləri qismində çıxış edən institusional investorlar (investisiya şirkətləri, fondları və s.) isə müxtəlif müəssisələrin vəsaitlərini toplayaraq investisiya fəaliyyətini həyata keçirirlər.

İnvestisiya layihələrinin reallaşdırılması və deməli, investisiya fəaliyyətinin göstərilməsi üçün bütün zəruri şərtlər investisiya bazarında formalaşır. İnvestisiya bazarı anlayışına fərqli yanaşmalar vardır. Bu isə həmin anlayışın birmənalı qəbul edilən şərhinin olmadığını göstərir. Əksər hallarda investisiya bazarı dedikdə investisiya malları və investisiya xidmətləri bazarı, digər hallarda isə investisiyaların maliyyələşdirilməsi üçün maliyyə resursları bazarı nəzərdə tutulur. Digər bazarlarda olduğu kimi, investisiya bazarında satıcılar və alıcılar çoxsaylıdır. Mahiyyətcə investisiya bazarını bütün investisiya malları və xidmətlərinin satıcıları və alıcıları arasında iqtisadi münasibətlərin məcmusu kimi qəbul etmək olar [23, s. 13].

İnvestisiya bazarında tələb və təklif nisbəti fəaliyyət mühitindən və potensial investorlara münasibətdən, dövlətin investisiya siyasətinin prioritetlərindən və bir sıra digər amillərdən asılıdır. Həm tələb, həm də təklif ehtiyaclar və onların ödənilməsi imkanları ilə bağlıdır. Bununla belə, real və potensial investisiya tələbinə fərqli münasibət göstərilməlidir. Məsələ ondadır ki, istehsal müəssisəsinin investisiyaya faktiki ehtiyacı kimi real investisiya tələbi investisiya qoyuluşları məqsədilə nəzərdə tutulan faktiki vəsaitlər olduğu halda, potensial investisiya tələbi adından göründüyü kimi

gözlənilən tələbdir.

İnvestisiya bazarının öyrənilməsi səviyyəsi investorun fəaliyyətinin nəticəsini, onun qarşıya qoyulan məqsədə uyğunluğunu şərtləndirən vacib məsələdir. İnvestisiya bazarını xarakterizə edən əsas göstəricilər məhsul bazarında dövriyyədə olan əsas vəsaitlərin səciyyəsi, onlara tələb və təklifin kəmiyyət ifadələri, investisiya malları üzrə əməliyyatların parametrləridir. Digər mallardan fərqli olaraq, investisiya malları, gələcəkdə gəlir əldə etmək məqsədi ilə müxtəlif fəaliyyət sahələrində istifadə edilə bilən mallardır [26].

Bu baxımdan investisiya proseslərinə münasibətdə diqqəti cəlb edən aşağıdakı münasibəti qeyd etməyi lazım bilirik. "İnvestisiya prosesində tələb və təklif arasında münasibət yarandığına görə, istehsalda əldə edilən artımı (əlavə dəyəri) digər məhsulların istehsalında istifadə olunan aralıq istehlak mallarına, konkret halda investisiya mallarına tələbin artması kimi qiymətləndirmək lazımdır" [6, s. 4/5].

Təcrübədən göründüyü kimi, daha yüksək gəlir, adətən daha riskli sahə və istiqamətlərdə investisiya qoyuluşlarından əldə edilə bilər. Risk-gəlir nisbətinə münasibətdə investorların strategiya və taktikaları kifayət qədər fərqli olur. Bu baxımdan investorları mühafizəkar və aqressiv kimi fərqləndirmək olar. Mühafizəkar investorlar yüksək riskli investisiyalardan qaçır və investisiyaların təhlükəsizliyini təmin etməyə çalışırlar. Aqressiv investorlar isə yüksək gəlir və sürətli kapital artımı vəd edən yüksək riskli layihələrə üstünlük verirlər [25].

İnvestisiya fəaliyyətinin növləri kimi, ilk növbədə ölkə vətəndaşları, qeyri-dövlət bölməsində fəaliyyət göstərən qurumlar tərəfindən göstərilən özəl investisiya fəaliyyəti; dövlətin investisiya fəaliyyəti; əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, əcnəbi hüquqi şəxslər, xarici dövlətlər və beynəlxalq maliyyə qurumları tərəfindən göstərilən xarici investisiya fəaliyyəti; birgə investisiya fəaliyyəti fərqləndirilir.

Elektron avadanlıqları istehsalı müəssisələrinin investisiya təminatını təşkil etmək və investorların qanunvericilik çərçivəsində davranışını sənəd dövriyyəsində əks etdirmək baxımından investor aşağıdakı işləri yerinə yetirməlidir:

- əsas kapitala yönəldilən vəsaitin həcmi və onun maliyyələşdirilməsi mənbəyi haqqında müvafiq bankların (maliyyə orqanlarının) rəsmi surətdə məlumatlandırılması;
- fəaliyyət üçün zəruri olduqda müvafiq dövlət strukturlarından razılıq və ya icazənin alınması;
- investisiya layihələri arxitektura, sanitariya-gigiyena, texnoloji, ekoloji və bir sıra digər tələblərinə əməl edilməsini nəzərdə tutursa müvafiq ekspertiza rəyinin alınması və s.

İndi isə investisiyaların idarə olunması sistemində elektron avadanlıqları istehsalı müəssisələrinin investisiya fəaliyyətinin yerinə və roluna nəzər salaq (sxem 1.1).

İnvestisiyaların idarə edilməsi sisteminin funksiyaları ilə idarəetmənin xüsusi sahəsi kimi investisiyaların idarə edilməsi funksiyalarını fərqləndirmək məqsədəuyğundur. Belə ki, müəssisədə investisiyaların idarə edilməsi sisteminin funksiyalarına investisiya fəaliyyətinin təhlili, planlaşdırılması, təşkili, təşviqi və investisiya qərarlarının icrasına nəzarət aid edilirsə, idarəetmənin xüsusi sahəsi kimi investisiyaların idarə edilməsi funksiyaları kimi real və maliyyə investisiyalarının, investisiya resurslarının və investisiya fəaliyyətində pul axınlarının idarə edilməsi funksiyaları götürülür. Elektron avadanlıqları istehsalı müəssisələrində idarəetmənin bütün mərhələlərində investisiya fəaliyyəti obyekt kimi diqqət mərkəzində olmalıdır. Bu halda yalnız kompleks yanaşma müəssisələrin investisiya təminatının yaxşılaşdırılması baxımından əhəmiyyətli nəticələr verə bilər.

Fəaliyyət sahəsi kimi investisiyaların idarə edilməsi, xərcləri azaltmaq, bazarın müvafiq seqmentinin tədqiqi, riskləri minimumlaşdırmaq və investisiya hesabına gələcək gəlirləri artırmaq üçün tənzimlənməsinə, təşkili və proqramlaşdırılmasına yönəlmişdir. Biznes-plan yuxarıda göstərilən aspektləri özündə birləşdirir.




***Sxem 1.1. Müəssisədə investisiyaların idarə edilməsinin sadələşdirilmiş sxemi.***

**İnvestisiya fəallığı və fəaliyyətin səmərəliliyi**

Müəssisələrin investisiya fəaliyyətinin səmərəliliyi onu şərtləndirən amillərdən bilavasitə asılıdır. Həmin amillər və onların yaratdığı mühiti müxtəsər surətdə xarakterizə edək. İlk növbədə, bu baxımdan, dövlətin investisiya siyasətinin roluna nəzər salaq. Müəssisənin investisiya fəaliyyəti dövlətin investisiya siyasətinin xarakteri və prioritetlərini nəzərə almalıdır. Hazırda dövlətlər öz investisiya siyasətində milli iqtisadiyyatın, o cümlədən yüksək texnoloji sənaye sahələrinin dinamik və dayanıqlı inkişafına, habelə regionlarda yeni sənaye fəaliyyətlərinin təşkilinə üstünlük verirlər.

Bu meyil bir neçə onilliklər boyunca davam edir. Aşağıdakı mənbədə göstərildiyi kimi investisiya siyasətinin başlıca məqsədi “iqtisadiyyatın intensiv inkişafına, məsrəflərin səviyyəsinin aşağı salınmasına, istehsal potensialının və mövcud əsas istehsal fondlarının istifadəsi dairəsinin genişləndirilməsinə qoyuluşların artırılmasıdır” [8, s. 132]

Dövlətin investisiya siyasəti elektron avadanlıqları istehsalı müəssisəsinin investisiya fəaliyyəti üçün əlverişli şərait formalaşdırır. “Kapital qoyuluşundakı, gömrük və vergi siyasətindəki güzəştlər, ucuz kreditlər və digər həvəsləndirici tədbirlər, maddi-texniki baza, valyuta məzənnəsinin sərbəst şəkildə dəyişməsi investisiyanın hərəkətinə təsir göstərən amillərdəndir” [17, s. 355].

Dövlətin investisiya siyasətinin prioritetləri əsaslandırılarkən nəzərə alınan mühüm amillər qismində iqtisadiyyatın və onun ayrı-ayrı sahələrinin perspektiv strukturunun formalaşdırılması və əsas sosial məsələlərin həlli xüsusi olaraq vurğulanmalıdır [11, s. 9]. Tədqiqatçılar sadalanan amillərlə yanaşı iqtisadiyyatın investisiyaya ehtiyacının ödənilməsi, onun həcmi və strukturunun müəyyən edilməsi, investisiya mühitinin yaxşılaşdırılması yolu ilə daxili və xarici investorların cəlb edilməsini [14, s. 159] dövlət siyasətinin prioritetləri hesab edirlər.

Eyni zamanda aşğıdakı mənbədə göstərildiyi kimi “prioritet investisiyalaşmanın struktur siyasətində kapitalın cəlb edilməsi, səfərbər olunması, transformasiyası və prioritet layihələrə yönəldilməsi və s. ilə əlaqədar problemlər ortaya çıxır” [10, s. 43].

İnvestisiya proqramlarının hazırlanması bu baxımdan önəmli hesab edilir ki, yerli müəssisələr, dövlət və xarici investorlar tərəfindən həyata keçirildikdə “dövlət maraqlarının təmin olunması

baxımından əsas məsələ kapital qoyuluşunun prioritet istiqamətlərinin müəyyən olunmasıdır. Odur ki, belə bir vacib məsələdə dövlətin investisiya siyasətinin əsasını təşkil edən hərtərəfli işlənmiş proqramı olmalıdır” [21, s. 36].

Mənbələrdə göstərilir ki, dövlətin “investisiya siyasətinin ən mühüm vəzifəsi mövcud ehtiyatlardan səmərəli istifadə etməklə, vəsaiti elmi-texniki tərəqqinin sürətləndirilməsini təmin edən sahələrin xeyrinə yenidən bölüşdürməkdən ibarətdir” [14, s. 76-77].

Müəssisələrin investisiya fəaliyyətində maraqlı olması başlıca şərtdir. Hazırda bu cəhətdən vəziyyəti qənaətbəxş hesab etmək çətindir. Müəssisələrin investisiya ilə təminatında onların investisiya fəallığı mühüm rol oynayır. Elektron avadanlıqları istehsalı müəssisələrinin kredit dərəcələrində baş verən dəyişikliklərə kifayət qədər həssas yanaşmaması, başqa sözlə, onların investisiya fəaliyyəti ilə həmin dəyişikliklər arasında asılılığın zəif olması borc vəsaitlərinin investisiyalaşma məqsədi ilə cəlb olunmasında ciddi problemlərin mövcudluğundan xəbər verir. Həmin problemlər qismində kreditlərin dəyərinin yüksək olması ilə yanaşı, mütəxəssis və tədqiqatçılar tərəfindən kreditlərin həcm və müddət məhdudiyyətləri də önə çəkilir [12]. Qlobal maliyyə və iqtisadi böhranı və digər səbəblərdən müəssisələrin böyük əksəriyyəti investisiya fəaliyyətinin uzunmüddəti planlaşdırılmasına diqqəti azaltmışlar. Onlar daha tez ödənilən qoyuluşlara və yüksək likvidliyə malik layihələrin icrasına üstünlük verirlər.

Müəssisələrin kifayət qədər investisiya qoymaması səbəblərini aydınlaşdırmaq üçün Rusiya Federasiyasının Mərkəzi Bankı İngiltərə Bankının aparmış olduğu sorğunun metodoloji bazasından istifadə etməklə anoloji sorğu keçirmişdir. Bu sorğunun nəticələri postsovet ölkələrinin iqtisadi məkanında investisiya təminatı problemlərinin qismən oxşarlığı səbəbindən diqqətəlayiq hesab edilmişdir. Rusiya Federasiyasının Mərkəzi Bankının haqqında danışılan sorğusu zamanı müəssisələrin investisiya qoyuluşlarını məhdudlaşdıran səbəblər iki qrupa ayrılmışdır. Bu qruplar maliyyə və iqtisadi (qeyri-maliyyə) xarakterli məhdudiyyətlər kimi fərqləndirilmişdir.

Müəssisələrin investisiya qoyuluşlarını məhdudlaşdıran birinci qup amillərə maliyyəyə çıxışın çətinliyi (o cümlədən, borc vəsaitinin dəyərinin yüksək olması) və müəssisələrin öz vəsaitlərinin qeyri-investisiya xarakterli istifadəsinə üstünlük verməsi aid edilmişdir. İkinci qrupa iqtisadi vəziyyətin qeyri-müəyyənliyi, investisiya qoyuluşlarının ödənilmə müddətinin uzun olması və əldə edilən gəlirlərin aşağı səviyyəsi, müəssisələrin investisiya davranışındakı ətalət və s. aid edilmişdir. [11, s. 17]

Aparılan tədqiqatların və qeyd edilən sorğunun nəticələrinə əsaslanaraq demək olar ki, elektron avadanlıqları istehsalı müəssisələrinin öz vəsaitlərinin az olması onların investisiya fəallığına birbaşa təsir edən amildir. Belə ki, müəssisənin öz vəsaitlərinin həcmi, ilk növbədə aşağıdakı üç mühüm amilin – mənfəətin, rəqabət qabiliyyətinin və buraxılan məhsula tələbin funksiyası kimi çıxış edir. Postsovet məkanı ölkələrində aparılan digər tədqiqatlarda da bu məsələyə anoloji mövqe bildirilir [18].

Artıq qeyd etdiyimiz sorğunun nəticələrinə qayıdaraq bildirək ki, müəssisələrin investisiya fəallığının aşağı olmasının qeyri-maliyyə səbəbləri kimi, burada, habelə aşağıdakı amillər xüsusi olaraq vurğulanır:

“ - ixtisaslı kadrların çatışmazlığı;

- qeyri-investisiya məqsədi ilə istifadə olunan vəsaitlərin daha tez ödənilməsi;
- istehsal və sosial infrastrukturun kifayət qədər inkişaf etməməsi;
- risklərin yüksək səviyyəsi;
- requlyator yükünün çox olması;
- mülkiyyət hüquqlarının zəif qorunması” [9, s. 17].

İnvestisiya fəallığının arzu edilən səviyyəsinin əldə edilməsində ixtisaslı kadr və müvafiq infrastrukturun inkişaf səviyyəsi amilləri artan rola malikdir. Özü də bu amillər arasında qarşılıqlı asılılıq da kifayət qədər güclüdür. Belə ki, rəqəmsal mühitdə ixtisaslı kadrların zəruri təcrübə qazanması üçün infrastrukturun vəziyyəti, sonuncunun inkişafı üçün isə onların peşəkar kadrlar tərəfindən intensiv istifadəsinə ehtiyac vardır.

### *Nəticə*

Nəhayət, deyilənləri xülasə edərək aşağıdakıları söyləmək olar. Müəssisələrin investisiya fəaliyyətinin səmərəliliyi, ilk növbədə həmin fəaliyyət sisteminin iqtisadi əsaslarının, maliyyə praktikasının və hüquqi təminatın zəruri səviyyəsinin əldə edilməsi halında təmin edilə bilər. Elektron avadanlıqları istehsalı müəssisələrinin investisiya fəaliyyəti, kapitalı artırmaq, innovasiyalı istehsal fəaliyyətini genişləndirmək məqsədi ilə həyata keçirilir. İnvestisiya layihələrinin həyata keçirilməsi, investisiya fəaliyyəti ilə məşğul olan bütün subyektlərin iqtisadi maraqları üst-üstə düşməsi halında mümkündür. İnnovasiya amili rəqabət qabiliyyətini artırmaq imkanları baxımından artan rola malikdir. Elektron avadanlıqları istehsalı müəssisələrinin investisiya fəaliyyətinin əsas prinsiplərinə münasibətlər xeyli dərəcədə fərqlidir. Bununla belə, həmin prinsiplərə ilk növbədə müstəqillik, sistemlilik, azadlıq, könüllülük, bütün iştirakçıların bərabər hüquqlu olması, investisiya sövdələşməsi iştirakçıları arasında münasibətlərin tənzimlənməsində müqavilənin əsas sənəd olması prinsipləri qeyd edilməlidir.

İnvestisiya fəaliyyətinin göstərilməsi üçün bütün zəruri şərtlər investisiya bazarında formalaşır. İnvestisiya bazarında tələb və təklif nisbəti fəaliyyət mühitindən və potensial investorlara münasibətdən, dövlətin investisiya siyasətinin prioritetlərindən və bir sıra digər amillərdən asılıdır. Daha yüksək gəlir, adətən daha riskli sahə və istiqamətlərdə investisiya qoyuluşlarından əldə edilə bilər. İnvestisiyaların idarə edilməsi investisiya layihələrinin həyata keçirilməsi çərçivəsində investisiya fəaliyyətinin idarə edilməsi ilə bağlı bütün aspektləri əhatə edən sistemdir. İnvestisiyaların idarə edilməsi sisteminin funksiyaları ilə idarəetmənin xüsusi sahəsi kimi investisiyaların idarə edilməsi funksiyalarını fərqləndirmək məqsədəuyğundur.

### ƏDƏBİYYAT


1. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 22 iyun 2022-ci il №551-VIQ. Maddə 4.
2. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 22 iyun 2022-ci il №551-VIQ. Maddə 5.
3. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 22 iyun 2022-ci il №551-VIQ. Maddə 6.
4. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 22 iyun 2022-ci il №551-VIQ. Maddə 7.
5. Adam Hayes. Defining Your Basic Investing Objectives: What To Factor. Updated May 20, 2022.https://www.investopedia.com/managing-wealth/basic-investment-objective.
6. Бобовников В.С., Пашина Е.В. Организация инвестиционных процессов в промышленных предприятиях. Организатор производства, 2007, с.4/5
7. Shvetsova, O.A.; Rodionova, E.A.; Epstein, M.Z. 2018. Evaluation of investment projects under uncertainty: multi-criteria approach using interval data, Entrepreneurship and Sustainability Issues 5(4): 914-928. http://doi.org/10.9770/jesi.2018.5.4(15)
8. Гитман Д.Л., Джонс. М.Д. Основы инвестирования, Москва, Финансы и статистика, 1997, 990 с., с.132.
9. Почему промышленные предприятия не инвестируют: результаты опроса Аналитическая записка Н. Карлова, Е. Пузанова, И. Богачева Январь 2020. Москва, Центральный банк Российской Федерации, 2020.31 с., с.17
10. Тагиев Н. Ф. Модели управления инветиционными процессами в условиях транзитивной экономики. Рига, БРИ, 2004, 304 с., s.43)
11. Əliyev Q. İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. Bakı, “İqtisad Universiteti”, 2008, 274 s., s. 9.
12. Почему промышленные предприятия не инвестируют: результаты опроса Аналитическая записка Н. Карлова, Е. Пузанова, И. Богачева Январь 2020. Москва, Центральный банк Российской Федерации, 2020.31 с., с.17

13. Ameli, N., Dessens, O., Winning, M. *et al.* Higher cost of finance exacerbates a climate investment trap in developing economies. *Nat Commun* 12, 4046 (2021). https://doi.org/10.1038 /s 41467-021-24305-3
14. Ağayev A.Q. Maliyyə terminləri lüğəti. Bakı, “Ziya”, 2005, 421s., s.159.
15. Rzayev P.Q. İnvestisiyaların tənzimlənməsinin vergi aspektləri. Azərbaycanın Vergi Xəbərləri. №5, Bakı, 2011, s.69-82, s.76-77.
16. Балабанов В. С., Дмитриева Е. В. Организация инвестиционной деятельности промышленных предприятий//Путеводитель предпринимателя. 2013 (19), с.33-40, с.34-36
17. Muradov Ş.M. İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər. Bakı, “Elm”, 2004, 660 səh., s.355
18. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 22 iyun 2022-ci il №551-VIQ. Maddə 1.
19. Khidirov, Nodir. (2021). Methods and Mechanisms of Financing Investment Activities in Industrial Enterprises. Journal of Economics, Finance And Management Studies. 04. 10.47191/jefms/v4-i5-16.
20. James McManus. The six principles of investing everyone should know. 30 November 2021. https://www.nutmeg.com/ nutmegonomics/the-six-principles-of-investing-everyone-should-know
21. Elvis Picardo. Investing Explained: Types of Investments and How To Get Started. Updated July 22, 2022.https://www.investopedia.com/terms/i/ investing. asp
22. Cəbiyev R.M. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı. Bakı, AzTU-nun mətbəəsi, 2000, 236 s., s.36)
23. Mark A. Moon and Leff Bonney. An Application of the Investment Model to Buyer-Seller Relationships: A Dyadic Perspective. Journal of Marketing Theory and Practice. Vol. 15, No. 4 (Fall, 2007), pp. 335-347 (13 p.)
24. **Sukhorukova O, Grygorova Z.., Kvasko A., Siryk M., Bobrov Y.** Principles and Components of Combining Investment Activities with Strategic Management of a Company// Academy of Strategic Management Journal (Print ISSN: 1544-1458; Online ISSN: 1939-6104). 2021 Vol: 20 Issue: 3
25. Difference between a conservative portfolio and aggressive investing. February 18, 2022. https://www. brightmoney. co/learn/conservative-vs-aggressive-investing
26. Matysiak, George & Tsolacos, Sotiris. (2003). Identifying Short-Term Leading Indicators for Real Estate Rental Performance. Journal of Property Investment & Finance. 21. 212-232. 10.1108/14635780310481658

***Эмиль Эхтибарович Гафаров***
***Азербайджанский Технический Университет***
***Диссертант кафедры “Экономика и статистика”***
***E-mail: qafarov-emil88@mail.ru***

## Концептуальные вопросы эффективности инвестиционной деятельности предприятий по производству электронной техники

***Резюме***

Современная производственная деятельность образует сложную систему, которая многообразна и взаимосвязана. Повышение инвестиционной безопасности предприятий электронного производства играет важную роль в повышении эффективности их деятельности.

**Цель исследования** - Раскрыть сущность деятельности по производству электронной техники, выявить причины противоречий в отношениях между субъектами производственной деятельности.

**Методология исследования** – в процессе исследования использовались методы наблюдения, сравнительного анализа и логического обобщения.

**Прикладная значимость исследования** - полученные результаты могут быть использованы при подготовке и реализации мероприятий по обеспечению эффективной работы предприятий по производству электронной техники, улучшению взаимоотношений субъектов.

**Результаты исследования** - уточнена сущность системы производства электронной техники, охарактеризованы основные факторы, определяющие отношения между субъектами производственной деятельности электронной техники и указаны причины возникновения противоречий в этих отношениях.

**Оригинальность и научная новизна исследования** - охарактеризована экономическая сущность процесса производства электронной техники, показаны пути устранения противоречий во взаимоотношениях предприятий-производителей электронной техники.

***Ключевые слова: производственные предприятия, отношения, инвестиции, инновации, местный инвестор, риск, доход.***

***Emil Ekhtibar Gafarov***
***Azerbaijan Technical University***
***Dissertation student of the department***
***“Economics and Statistics”***
***E-mail: qafarov-emil88@mail.ru***

## Conceptual issues of efficiency of investment activity of electronic equipment manufacturing enterprises

***Summary***

Modern production activity forms a complex system that is diverse and interconnected. Increasing the investment security of electronic production enterprises plays an important role in improving the efficiency of their activities.

**The purpose** of the study is to reveal the essence of the activity for the production of electronic equipment, to identify the causes of contradictions in relations between the subjects of production activity.

**Methodology of the research** - the methods of observation, comparative analysis and logical generalization were used in the course of the research.

**Applied significance of the study** - the results obtained can be used in the preparation and implementation of measures to ensure the efficient operation of enterprises for the production of electronic equipment, improve the relationship of subjects.

**The results of the study** - the essence of the system of production of electronic equipment is clarified, the main factors that determine the relationship between the subjects of the production activity of electronic equipment are characterized, and the reasons for the emergence of contradictions in these relations are indicated.

**Originality and scientific novelty of the research** - the economic essence of the process of production of electronic equipment is characterized, ways to eliminate contradictions in the relationship of enterprises-manufacturers of electronic equipment are shown.

***Key words: industrial enterprises, relations, investments, innovations, local investor, risk, income.***